XALQ ƏMANƏTİ

MARAL RƏHMANZADƏ



RƏNGKARLIQ VƏ QRAFİKA / PAINTING & GRAPHICS





İdeya:
Xalq Bank

Layihənin rəhbəri:
Rafiq Həşimov

Nəşrin tərtibçisi:
Emin Məmmədov

Bədii tərtibat və dizayn:
Tərlan Qorçu

Mətnin müəllifi:
Şirin Y. Məlikova

Tərcümə:
Elşən E. Eynullayev

Redaktor:
Səlim Babullaoğlu

MARAL RƏHMANZADƏ
Rəngkarlıq və qrafika

ISBN 978-9952-34-590-2

Kitab üçün rəsmlərin seçilməsində "Qız Qalası" bədii qalereyası böyük köməklik göstərib.

Bütün hüquqlar qorunur: kitabda təqdim olunan mətn və rəsm əsərlərindən Xalq Bankdan icazəsiz istifadə edilə bilməz.

© Xalq Bank, 2011
www.xalqbank.az

"Şərq-Qərb" Nəşriyyat evinin mətbəəsində çap olunub
www.eastwest.az

Xalq Bank tərəfindən həyata keçirilən "Xalq Əmanəti" layihəsi çərçivəsində hədiyyəlik nəşr olunub



85.143(5Azə)
M 26

XALQ ƏMANƏTİ

MƏRAL BƏHMANYAZADƏ

Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 66685





Ailə. Təhsil illəri

Family and Years of Study

Maral Rəhmanzadə. 1949
Maral Rahmanzade. 1949

az.

Səmimiyyət və təvazökarlıq rəssamın ən dəyərli xüsusiyyətləridir
Paolo Veroneze

Ailə. Təhsil illəri

Çoxsaylı avtolitoqrafiya və linoqravürlər, ofort və rəsmlər, sulu boya və rəngkarlıq işləri, kitab qrafikası nümunələri, Böyük Vətən müharibəsi dövrünə aid təbliğat plakatları görkəmli Azərbaycan rəssamı Maral Rəhmanzadənin zəngin yaradıcılıq irsini təşkil edir.



Maral Rəhmanzadə. 1936
Maral Rahmanzade. 1936

Yaradıcılığa keçən əsrin 30-cu illərində başlayan Maral Rəhmanzadə, yeni, təzadlar və məhdudiyyətlərlə dolu sovet təsviri incəsənətinin yaradılması prosesinə aktiv qoşulmasa da, onun ideologiyasına kor-koranə xidmət etməmiş, əksinə məhsuldar yaradıcılıq illəri ərzində özəl dəsti-xəttini formalaşdırmağa, dövrünün aktual mövzularını qaldırmaqla öz yolunu tapmağa müvəffəq olmuş sənətkar idi. Rəssamın toxunduğu mövzular bu gün də seyrçi üçün maraqlıdır. Ümumiləşdirilmiş, zəriflik və lirika dolu, idealizə olunmuş Azərbaycan qadını obrazı, "yeni sovet qadın obrazı", neftçilərə həsr olunmuş son dərəcə emosional seriya, şəhər və kənd mənzərələrinin geniş retrospektivi – bu mövzular və obrazlar Maral xanımın dərindən, incəliklə hiss etdiyi, bütün qəlbi ilə sevdiyi Azərbaycanın sənət tarixində öz layiqli yerini tutub.

Çoxuşaqlı ailənin sayca üçüncü övladı olan Maral Rəhmanzadə 1916-cı ilin iyul ayının 23-də Bakının Mərdəkan kəndində anadan olub. Bu ailədə Azərbaycan sənətinin qədim ənənələri ehtiramla qorunur, nəsildən-nəslə ötürülürdü. Maralın atası tanınmış zərgər, şəbəkə ustası, babası mahir şüşəçi, dayısı isə həkkak idi. Rəssamın bacı-qardaşlarıyla birgə bu yaradıcı mühitdə qədim naxışların semantik kodlarının fəlsəfəsini, kompozisiyanın ənənəvi formalarını, rənglərin ritm və rəmzlərini dərk edərək böyüyürdülər.

Ən əsası da bu idi ki, onlar sevgi və diqqət ilə əhatə olunmuşdular və bu da onların xarakterinin formalaşmasına, gələcək talelərinə təsir etməyə bilməzdi. Maralın atası son dərəcə nəcib və həssas bir insan, zəmanəsinin yetərincə mütərəqqi və

eng.

The most valuable features of an artist are sincerity and modesty.
Paolo Veroneze

Family and Years of Study

Numerous autolithographies and linocuts, etchings and drawings, portraits in watercolors and paintings, book illustrations and propaganda posters painted during the Great Patriotic War represent the vast artistic heritage of the famous Azerbaijani artist Maral Rahmanzade.



Maral Rəhmanzadə (sağda) bibisi Tutunun ailəsi ilə
Maral Rahmanzade (on the right) with aunt Tutu's family

Maral Rahmanzade, whose career began in the 1930s, actively joined the creation of a new Soviet art form, despite its contradictions and limitations. She did not blindly follow its ideology, but managed to find her own way through years of fruitful work. She was able to develop a distinctive style, exposing and addressing current topics at that time. The artist's main theme of creation still attracts the audience – it is a generalized, lyrical , graceful, somewhat idealized image of Azerbaijani woman. Herdepiction of the "new Soviet woman", worker and activist, is remarkable for its emotionally charged series devoted to the Caspian oil industry workers, an extensive retrospective of urban and rural landscapes where Maral Rahmanzade demonstrates her amazing sense of color and composition. This, as well as many other series, takes its place in the history of fine arts in Azerbaijan – a country that Maral loved and identified with so keenly.

Maral Rahmanzade was born on July 23, 1916 in Mardakan Village, a suburb of Baku. She was the third child of a large family, in which the ancient traditions of Azerbaijani art were carefully preserved and handed down from one generation to another. Maral's father was a famous jeweler renowned in the neighborhood, a master of filigree; her grandfather was a skilled glass cutter, and her uncle the carver on a stone. She and her siblings grew up in a creative atmosphere, learning the philosophy and mysteries of ancient ornaments, traditional forms of composition, rhythm and symbolism of color all through their childhood.

Most importantly, they were surrounded by love and attention, which could not but influence the formation of their characters and later, their fates. Maral's



savadlı nümayəndəsi idi. Unutmaq olmaz ki, Maralın yeniyetməlik dövrü mürəkkəb, yeni yaranmış sovetlər dövlətinin tərkibinə qatılmış bütün ölkələr kimi, Azərbaycan üçün də tarixi dönüş dövrüylə üst-üstə düşürdü. Şikəst edilmiş talelər, itirilmiş gənclik, qorxu... ölüm... Amma ədalət naminə qeyd etməliyik ki, dünyada ilk dəfə məhz sovet hakimiyyəti qadınların tam sərbəst şəkildə təhsil almaq, əmək fəaliyyəti ilə məşğul olmaq, özünü realizə etmək imkanı və hüququ verən unikal bir mühit yaratmışdı. Məhz bu şərait müsəlman ailəsində böyümüş və 15 yaşınadək çadra örtən Maralın bir azərbaycanlı qızı kimi Moskvada peşəkar bədii təhsil almasına imkan yaradır. Bu haqda sonra, hələlik isə Maral Rəhmanzadənin böyüdüyü mühitə nəzər salaq. Qabaqcıl, mütərəqqi ideyaların ənənəvi Azərbaycan mentaliteti ilə

soldan-sağa:
bacısı Məryam, atası,
qardaşı Kamal,
bacısı Xanım, nənəsi,
anası, Maral Rəhmanzadə.
Quba. 1925

from righ to left:
sister Maryam, father,
brother Kamal, sister Khanum,
grandmother, mother, Maral
Rahmanzade. Quba. 1925





Maral Rəhmanzadə (sağda) kiçik bacısı Xanım ilə
Maral Rahmanzade (on the right) with younger sister Khanum

Maral Rəhmanzadə (sağda) bibisi qızı Sara ilə. 1930
Maral Rahmanzade (on the right) with cousin Sara. 1930

father was an uncommonly delicate and sensitive man, quite progressive and educated for his time. We must remember that the period of Maral's growth to adulthood occurred during a difficult and crucial historical period, not only for Azerbaijan but also for all those countries that were included in the vast territory of the new Soviet State. Ruined fates, confiscated youth, fear and death became features of their lives, but ironically, in this time of repression, the Soviet state created a unique environment in which a woman was entitled to great freedom in education, employment and self-realization. Under these circumstances, Maral Rahmanzade, who was born into a Muslim family and wore the veil until she was fourteen, was able, for the first time in Azerbaijan, in spite of the fact that she was a woman, to get an artistic education in Moscow. Maral had the good fortune to grow up in a wonderful environment where progressive ideas were harmoniously combined with the traditional Azeri mentality, in a family that welcomed the desire to keep pace with the times and grow spiritually through their knowledge and love of national culture.

Speaking of the artist's family, one cannot fail to mention Maral's beloved grandmother. It is known that she wove amazingly beautiful 'sumakh' carpets, and little Maral, who loved to watch her grandmother working, received at a subconscious level her first lessons in mastery of traditional ornamental forms harmoniously co-existing on the surface of a fairy carpet-a carpet in which patterns suddenly began to emerge and told surprising stories to a small and curious girl about the land of Absheron – magnetic, sacred and mysterious, where the indigo Caspian sea merges with the golden sand of the coast, where the endless sky is illuminated by the light of the huge orange sun, where vines of juicy grapes sprout and the shapes of fig trees impress with their twisted ugliness, where medieval castles and fortresses keep the silence of the centuries...

Thus, Maral Rahmanzade went to school already equipped with some concrete creative skills and, as was to be expected, her favorite subject was drawing. Her first teacher was quite young, and later became a well-known artist and representative of the realistic school of Salam Salamzade. During her schooldays, Maral was characterized by energy, enthusiasm and an undeniable talent. Her gift was noticed and appreciated – creative works of the young artist were displayed at the school exhibitions.

Üç bacı. 1937
Three Sisters. 1937





Maral Rəhmanzadə. Bakı. 1930
Maral Rahmanzade. Baku. 1930

Maral Rəhmanzadə. 1935
Maral Rahmanzade. 1935





"Qızıl əllər", "Bizim qızlar" silsiləsindən, 1971, linoqravür, 65,5x50,5
"Magical Hands" from "Our Girls" series, 1971, linocut, 65,5x50,5

ahəng təşkil etdiyi, milli mədəniyyətə məhəbbət ruhunun hökm sürdüyü, zamanla ayaqlaşmağı, mənən yüksəlməyi alqışlayan maraqlı bir mühit – ailəsi əhatə etmişdi onu. Onun ailəsi haqda danışarkən rəssamın sevimli nənəsini yada salmamaq olmaz. Elə nənəsinin toxuduğu sumaxlara tamaşa etməyi sevən Maral artıq uşaq yaşlarında təhtəlşüur səviyyədə xalçanın sehrli səthi üzərində ənənəvi ornamental formaların həmahəng uzlaşması üzrə ilk dərslərini alırdı. Bu dərslərdə, belə anlarda xalçanın üzərindəki naxışlar hərəkətə gəlir, balaca qızcığaza indiqo rəngli Xəzərin öz sahilinin qızılı qumlarına qovuşduğu, nəhəng narıncı günəşin işığına qərq olan sonsuz səması, şirəli üzümlərinin təmtəraqlı gövdələri və əncir ağaclarının biçimsizliyi ilə təəccübləndirən, əsrlərin sükutunu pozmayan orta əsr qəsr və qalaların ucaldığı doğma, çəkici, sakral və sirli Abşeron torpağı haqda heyrətamiz əhvalatlar danışırdı.

İlk müəllimi, realistik məktəbin nümayəndəsi, gənc Salam Salamzadə olan Maral Rəhmanzadə məktəbə artıq müəyyən yaradıcılıq vərdişləri ilə silahlanıb getmişdi və təbii ki, onun ən sevdiyi fənn rəsm dərsi idi. Maral məktəb illərindən öz fəallığı,

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 66685



"Qonaqkənddə", 1964, kağız, pastel, 26x33
"In Gonagkend Village", 1964, pastel on paper, 26x33



"Qonaqkənd. Xalçaçılar", 1964, kağız, pastel, 26x38
"Gonagkend Village. The Carpet Weavers", 1964, pastel on paper, 26x38

"Dağ kəndinin anaları", 1964, kağız, rəngli linoqravür
"Mothers from Mountain Village", 1964, color linocut







"Köhnə Bakı", 1950, kağız, avtolitoqrafiya, 36x50,5

"Old Baku", 1950, autolithograph, 36x50,5

"İçəri şəhərdə küçə", "Bakı" silsiləsindən, 1960, rəngli litoqrafiya, 70x30,5

"Street in the Old City", from "Baku" series, 1960, color lithograph, 70x30,5

The choice of a future profession was predetermined. After completing seven years of schooling, in 1930, Maral Rahmanzade entered the only existing Art School in Azerbaijan at that time, the founder and spiritual core of which was a famous caricaturist named Azim Azimzadeh. He played a huge role in the development of talented Azeri artists. Among them was Maral Rahmanzade who, after three years of study, was selected by leading teachers of the school to continue her education in Moscow, in the V.I. Surikov Art Institute. Fortune had opened wide horizons for Maral Rahmanzade, giving her an opportunity to explore a new world through learning from such renowned artists as P. J. Pavlinov, N.E. Radlov, M.F. Shemyakin, D.S. Moor, B.A. Favorskiy and A.I. Kravchenko. It should be noted that the father of the artist made an unprecedented show of his support in allowing his beloved daughter to study in Moscow. However, she was not alone when she went to Moscow. There was another like-minded person in her life – Sattar Bahlulzadeh, to whom the artist was linked by subtle





"Sınıq qala",
"Bakı" silsiləsindən, 1960,
kağız, rəngli litoqrafiya, 72x54
"The Mosque of Sinig Gala",
from "Baku" series, 1960,
color linocut on paper, 72x54

"İçəri şəhər", 1970,
kağız, sulu boya, 23,5x15
"The Old City – Icheri Sheher", 1970,
watercolor on paper, 23,5x15





soldan-sağa: Maral Rəhmanzadə, bibisi qızı Bilqeyis, böyük bacısı Məryam. 1933
from left to right: Maral Rahmanzade, cousin Bilgeyis, elder sister Maryam. 1933

Maral Rəhmanzadə. 1935
Maral Rahmanzade. Baku. 1935

spiritual bonds for many years. Maral had admired the extraordinary talent of Bahlulzadeh, revering him for his erudition and excellent knowledge of oriental literature and Mugam. He was her spiritual guru, and he accompanied her to all the exhibitions and rejoiced in her successes and achievements.

The years of study in Moscow were full of new impressions. Maral was working hard on the plastic expressiveness of drawing, trying to achieve completeness of compositions. Maral was enamoured of the wonderful creative atmosphere that prevailed during the summers. Students with their teachers used to travel to the Crimea and work out of doors. Perhaps her love for the landscape genre was born during those years of study. Another trip which was forever engraved on the memory of the artist took place in 1938, when the eminent artists L.A. Bruni and V. Goryayev arrived in Baku to work on the design of the Azerbaijan pavilion





şövqü və şəksiz istedadı ilə digər şagirdlərdən seçilirdi. Onun istedadı layiqincə qiymətləndirilir və gənc rəssamın əsərləri müntəzəm olaraq məktəb sərgilərində yer alırdı.

Seçimi çoxdan edilmişdi. Maral, əsası 1930-cu ildə görkəmli karikaturaçı rəssam Əzim Əzimzadə tərəfindən qoyulan və Bakının yeganə texniki peşə məktəbi olan incəsənət məktəbinə qəbul olunur. Azərbaycanın istedadlı rəssamlarının taleyində böyük rol oynamış bu məktəbdə üçillik təhsilini başa vurduqdan sonra, məktəbin müəllimləri tərəfindən V. İ. Surikov adına İncəsənət İnstitutunda təhsilini davam etdirmək üçün seçilən Maral Rəhmanzadə Moskvaya göndərilir. Tale Maral Rəhmanzadə qarşısında geniş üfüqlər açır, yeni dünyanı dərk etmək, P. Pavlov, N. Radlov, M. Şemyakin, D. Moor, B. Favorski, A. Kravçenko kimi ustalardan öyrənmək imkanı verir. Maralın atası isə belə bir şəraitdə misligörünməmiş cəsarət nümayiş etdirib qızını Moskvaya təhsil almağa icazə verir. Maral Moskvaya tək getmir. Onun həyatında daha bir mənəvi məsləkdaşı var idi – Səttar Bəhlulzadə. Maral xanım Səttar Bəhlulzadənin fövqəladə istedadının, erudisiyasının, Şərq ədəbiyyatı və muğam sahəsində dərin biliklərinin heyranı idi. O, Maral xanımın mənəvi ustadı idi, bütün sərgilərdə onu müşayiət edər, onun uğurlarına sevinərdi.

Moskvadakı tələbəlik illəri yeni təəssüratlarla dolu idi. Maral kompozisiyanın bitkinliyinə müvəffəq olmaq üçün rəsmdə xətlərin plastik ifadəliyi üzərində səylə çalışırdı.

Maral Rəhmanzadə (sağda) qohumu Gülsüm ilə. 1934

Maral Rahmanzade (on the right) with her relative Gulsum. 1934

sağdan-sola: Maral Rəhmanzadə anası və kiçik bacısı Xanım ilə. 1935

from righ to left: Maral Rahmanzade with mother and younger sister Khanum. 1935



Moskva, Bolşoy Teatrı, 1930-cu illər
Moscow, Bolshoy Theatre, 1930s



Moskva, 1930-cu illər
Moscow, 1930s



Maral Rəhmanzadə. 1934
Maral Rahmanzade. 1934





Maral Rəhmanzadə. 1936 / *Maral Rahmanzade. 1936*

for the All-Union Agricultural Exhibition in Moscow. Maral Rahmanzade met them in Baku and later left with them on an expedition through Azerbaijan to collect necessary material. At that time, Maral discovered the unique beauty of nature in Azerbaijan – the rocky mountains and blooming gardens, picturesque lakes and wild rivers: "... When I saw for the first time Shah-Dag in the Kuba region, I was struck by the majesty of the mountains. I was happy: during my stay with my teachers, I was drawing, watching and admiring nature together with them"– says the artist.

The best graphic works created during her student years are the series "Rest of Collective Farmers" (1935) and "Woman of Azerbaijan in the Past and at Present" (1940). Her interest in the fate of Muslim women under the new conditions of life was dominant in the works of the artist. Drawing an analogy between the cultural features and the values and moral phenomena of the two eras, at the seam of which the personality of Maral Rahmanzade was formed, the artist managed to grasp accurate and specific images with the help of skilful composition and tone, to attain the narrative character and symbolism which characterizes her works. The desire for freedom and a newfound right to education (graphical and



Maral Rəhmanzadə (mərkəzdə) və onun həyat yoldaşı (sağdan ikinci) öz müəllimləri və sinif yoldaşları arasında. Moskva. 1934

Maral Rahmanzade (in the middle) and her husband (second from the right) with teachers and messmates in Moscow. 1934



Maral Rəhmanzadə həyat yoldaşı (solda) və qayını ilə Sokolnikidə
Maral Rahmanzade, her husband (on the right) and brother-in-law in Sokolniki



Maral Rəhmanzadə. 1934
Maral Rahmanzade. 1934

autobiographical work "The right to Education"), the existence of a wide range of specialties where a Soviet woman could manifest herself, and her right to control her own life were opposed to the traditional situation of women in pre-revolutionary Azerbaijan who, fenced off from the world by the veil, were forced to look at the world through the narrow eye-slits in their garments and were deprived of their rights to express themselves and direct their lives ("Mesalliance", "The Old Town"). As many of us believe, there are no accidental chances and coincidences in life. Here is an interesting fact from the artist's biography: Maral Rahmanzade was asked to sit for a statue of the famous Azerbaijani poetess, an erudite, sophisticated, talented and charming woman named Hurshudbanu Natavan who impressed the great Alexandre Dumas with her intellect and personality. It is no coincidence that Maral Rahmanzade sat for this sculpture, now



"Təhsil almaq hüququ", 1941, kağız, kömür, 31,5x58,5
"The Right to Education", 1941, charcoal on paper, 31,5x58,5

Maralın çox sevdiyi yay təcrübəsi dövrü isə qeyri-adi mühitdə keçirdi. Tələbələr öz müəllimləri ilə Krıma səfər edib, orada plenerdə işləyirdilər. Ola bilsin ki, mənzərə janrına olan sevgi məhz tələbəlik illərində yaranmışdı. Daha bir səfər rəssamın yaddaşına əbədi həkk olunur. 1938-ci ildə görkəmli rəssamlar L. Bruni və V. Qoryayev Ümumittifaq Kənd Təsərrüfatı Sərgisi üçün Azərbaycan pavilyonunun bədii tərtibatını həyata keçirməkdən ötrü Bakıya gəlirlər. Onları qarşılayan Maral qonaqlarla birgə lazımi material toplamaq məqsədi ilə Azərbaycanın bölgələrinə yaradıcı ekspedisiyaya yollanır. O zaman Azərbaycan təbiətinin əsrarəngiz gözəlliyini özü üçün kəşf edən Maralı uca dağlar, sıldırım qayalar, çiçəkləyən bağlar, ecazkar göllər və coşqun çaylar heyrətə gətirmişdi və o öz xatirələrində –



"Əshabi-Kəhf",
kağız, qrafit, 40x30

"As-habi-Kahf",
graphite pencil on paper,
40x30



"Quba rayonunda Şahdağı ilk dəfə görəndə dağ təbiətinin əzəmətinə valeh oldum, mən öz müəllimlərimlə birgə bu gözəlliyə tamaşa edir, onu kətan üzərinə köçürürdüm, mən xoşbəxt idim" – deyə yazırdı.

Tələbəlik çağlarının ən yaxşı qrafik işləri "Kolxozçuların istirahəti" (1935) və "Azərbaycan qadını keçmişdə və gələcəkdə" (1940) silsilələridir. Müsəlman qadınının taleyinə böyük maraq Maral Rəhmanzadə yaradıcılığında dominant təşkil edirdi, xüsusilə də həyatının bu mərhələsində. Şəxsiyyəti iki müxtəlif dövrün kəsişməsində formalaşan rəssam bu dövrlərin mədəni, dəyər və mənəvi xüsusiyyətləri arasında analogiya aparır, kompozisiya və tonal həllərin köməyi ilə dəqiq, xarakterik obrazları taparaq əsərlərində nəqliliyə və simvolikliyə nail olur. Azadlığa can atan və təhsil almaq hüququnu əldə edən ("Təhsil hüququ" qrafik və avtobioqrafik əsər), peşə seçmək imkanı və haqqı qazanan sovet qadını, onun öz müqəddəratını

"Əshabi-Kəhf",
kağız, qrafit, 40,5x28,5

"As-habi-Kahf", graphite pencil on paper, 40,5x28,5


"Кара Богаз"



"Qara boğaz",
"Azərbaycan"
silsiləsindən,
1970-ci illər, kağız,
linoqravür,
12,7x19

"Qara Boqaz Channel",
from "Azerbaijan" series,
1970s, linocut on paper,
12,7x19





Maral Rəhmanzadə. 1941
Maral Rahmanzade. 1941

Maral Rəhmanzadə emalatxanada. Bakı. 1959
Maral Rahmanzade in studio. Baku. 1959

adorning one of the loggias of the Nizami Museum. Maral was not only beautiful, but close in spirit to Natavan – the priorities for both of them were education, an active social position and the ability to combine progressive European views with the unique identity of their own culture.

Maral's works were positively assessed by the critics and professors at the V.I.Surikov Arts Institute. I.E. Grabar, a famous Russian painter and art historian described Maral Rahmanzade as a "very talented Azerbaijani woman". The thematic predilections of the artist at this time are notable, in addition to her ability



Bakı rəssamlıq məktəbində (sağdan-sola): Maral Rəhmanzadə, S.Bəhlulzadə, A.Məmmədov, B.A.Mirzazadə, L.Feyzullayev

In Baku Art College (from righ to left): Maral Rahmanzade, S.Bahlulzade, A.Mammadov, B.A.Mirzazade, L.Feyzullayev

həll etmə, taleyinin sahibi olma imkanları inqilabdan əvvəlki Azərbaycanın bağlı, özünə qapanmış, qara çadraya bürünmüş və bu çadranın altından dünyaya baxan qaradinməz, bütün hüquqları əlindən alınmış ("Qeyri-bərabər nikah", "İçəri şəhər") qadınla qarşı-qarşıya qoyulur. Məlumdur ki, həyatda təsadüf və mütabiqət olmur. Rəssamın bioqrafiyasından bir maraqlı fakt: Maral Rəhmanzadə istedadlı və cazibədar, erudisiyalı və zərif, öz intellekti ilə Aleksandr Dümanı heyran etmiş məşhur Azərbaycan şairəsi Xurşidbanu Natəvanın hazırda Nizami Gəncəvi adına Ədəbiyyat muzeyinin lociyasındakı heykəli üçün poza vermişdi. Maral xanım Natəvan kimi gözəl və eyni zamanda ona ruhən yaxın bir insan idi.

Maral Rəhmanzadə Natəvan obrazında. Bakı. 1941
Maral Rahmanzade poses for a statue of Hurshudbanu Natavan. Baku. 1941



Maral Rəhmanzadə həyat yoldaşı ilə. 1948
Maral Rahmanzade with husband. 1948

Onların hər ikisi üçün təhsil, fəal ictimai mövqe prioritet təşkil edirdi, onlar hər ikisi mütərəqqi Avropa dəyərlərini milli mədəniyyətin özəllikləri ilə uyğunlaşdırma bacarığına malik idilər.

Artıq o dövrdə onun işləri institut müəllimləri və tənqidçilər tərəfindən müsbət qiymətləndirilmişdi. Məşhur rus rəngkar və şənətşünası İ. Qrabar Maral Rəhmanzadəni "çox istedadlı Azərbaycan qızı" kimi xarakterizə edirdi. Rəssamın o dövr üçün aktual olan mövzu meyillərindən əlavə, onun müxtəlif ifadə vasitələrinin köməyi ilə əsərin ideya və mənasını açmaq və daxili yükünü seyrçiyə çatdırmaq bacarığı yüksək qiymətləndirilirdi.

1940-ci ildə Maral Rəhmanzadə artıq peşəkar, ruhən, mənən və ideya baxımından formalaşmış şəxsiyyət, sənətdə yalnız irəliyə doğru hərəkət edən sənətkar idi. Onun əsərlərində yaradıcılıq vurnuxması sezilmir, onlarda ardıcıllıq və dürüstlük, rəssamın daxili azadlığı hiss olunur. 1940-cı ildə institutu bitirdikdən sonra rəssam-qrafik Maral Rəhmanzadə təyinatla Moskvadakı bədii ədəbiyyat nəşriyyatına işə göndərilir. Lakin o, 1941-ci ildə Bakıya dönür. Səbəb, təkcə müharibə deyildi. Milyonlarla sovet vətəndaşının həyatını alt-üst etmiş Böyük Vətən müharibəsi Maral Rəhmanzadə üçün bir ailə faciə ilə üst-üstə düşdü. 1941-ci



Maral Rəhmanzadə Moskva yaxınlığındakı Çelyuskin Rəssamlar Evində. 1957
Maral Rahmanzade at the Artists' House of Cheluskin, Moscow suburb. 1957



Maral Rəhmanzadə. 1948
Maral Rahmanzade. 1948

to introduce a concept using various means of expression and reveal this to her audience.

By 1940, Maral Rahmanzade was a professionally, ideologically, spiritually and emotionally formed person, who always knew exactly in what direction she must proceed. There is no creative inconstancy in her works – they are consistent and true; there is a feeling of the inner freedom of the artist.

After graduating from the Institute in 1940 as a certified graphic artist, Maral Rahmanzade was employed by a publishing house of fictional works in Moscow. In 1941 she returned to Baku. A terrible event for millions of Soviet citizens – the Great Patriotic War – had coincided with a tragic event in the life of Maral Rahmanzade and her family. In 1941 her father was arrested and declared a public enemy. Six months after his arrest he died in prison in Tashkent. Now Maral was in charge of her family. She gave up her creative career that had begun so successfully in Moscow, and returned to Baku, to take up her familial



Maral Rəhmanzadə. 1949
Maral Rahmanzade. 1949

ildə onun atası xalq düşməni elan edilərək sürgün olundu və həbsindən 6 ay sonra Daşkənd həbsxanasında vəfat etdi. Maral Rəhmanzadə ailənin böyüyünə çevrildi. O, Moskvada çox uğurla başlayan yaradıcılıq karyerasını ataraq Bakıya qayıdır və burada həyatının sonunadək davam etdirəcəyi işinə başlayır. Ailəsi qarşısında böyük məsuliyyət dərk edən Maral anasına kiçik qardaş və bacılarını böyütməkdə yardımçı olur, ailənin dayağına çevrilir. Qeyd etdiyimiz kimi Maral Rəhmanzadənin ailəsi olduqca maraqlı və mütərəqqi ailə idi. Ailənin bütün uşaqları yaradıcı peşələr seçmişdi. Qardaşlarının ikisi heykəltəraş, böyük bacısı memar, kiçik bacısı isə musiqi yolunu seçmişdi. Beləliklə Bakıya qayıtdıqdan sonra Maral Rəhmanzadənin həyatında yeni səhifə açıldı. Bu illər ərzində çoxlu sayda linoqravürlər və litoqrafiyalar, kitab qrafikası və rəsmlər yaradıldı. Müharibə illərindən başlayaraq ömrünün sonunadək Maral Rəhmanzadə 50-dən çox sərgidə iştirak edir, əsərləri bütün dünyada öz tamaşaçısını tapır.

Bu esseni davamı olaraq Maral Rəhmanzadə yaradıcılığının inkişaf mərhələlərini mövzu sırası ilə fəsillərə bölmək istərdik.



Maral Rəhmanzadə.
1946
Maral Rahmanzade. 1946



Maral Rəhmanzadə.
1956
Maral Rahmanzade. 1956

duties. Acting upon her deep and abiding sense of responsibility to her family, she helped her mother raise her younger brothers and sisters and became their mainstay. Maral's talented family blossomed. All the children chose creative professions – two brothers became sculptors, the elder sister became an architect and the younger sister a musician.

On her return to Baku, a new chapter opened in the life of Maral Rahmanzade – active years of creative work began. During this period she created many works of art – linocuts and lithographs, book illustrations and drawings, oil paintings and watercolors. From the war years until her death, Maral Rahmanzade had participated in more than 50 exhibitions worldwide, and her works always found their own audience.

I would like to continue this essay by categorizing the creative works of the artist according to the thematic series that were gradually developing throughout her artistic career.

Maral Rəhmanzadə öz fərdi sərgisində. 1949
Maral Rahmanzade at her personal exhibition. 1949



Neft bumu

The Oil Boom



Maral Rəhmanzadə Bayılda. 1951
Maral Rahmanzade in Bailovo. 1951

Neft bumu

Neft – Maral Rəhmanzadənin daha çox qrafik işlərində, özü də müfəssəl və müəyyən mənada nəqli rəssamlıq təhkiyəsi ilə ifadə olunan vacib mövzu olub, bütövlükdə rəssamın yaradıcılığının əhəmiyyətli tematik kəsimi sayıla bilər. Bu tematikaya aid 10 vərəqdən ibarət "Neft" adlı ton litoqrafiya seriyası 1947-ci ildə ərsəyə gəlir. Təbiətcə obrazlı düşünən şəxsiyyət kimi Maral Rəhmanzadə hər hansı bir mövzu haqda fikirləşərkən, ilk əvvəl onun seriyadakı işlərdə açıqlanacaq məzmun konsepsiyasını düşünürdü. Adıçəkilən seriyada isə o qarşısına, hələ qədim zamanlarda sitayiş obyekti olan, neft və qaz yataqları, yeraltı sərvətləri ilə məşhur, əsrarəngiz Abşeron torpağı haqda "danışmaq" məqsədi qoymuşdu. Hər vərəqdə Abşeronda neft hasilatı tarixinin müxtəlif mərhələləri ardıcıllıqla təsvir edilir. Burada həmçinin inqilabdan əvvəl neftçıxarma və sovet Azərbaycanında bu sahədə əldə edilmiş nailiyyətlər öz əksini tapıb. Seriyanı "Atəşpərəstlər" əsəri açır. Rəssam yumşaq çalar keçidləri və zərif xətlər vasitəsi ilə canlı, detallarla zəngin kompozisiya yaradır. Seyrçi ilk baxışdan atəşpərəstlərin sitayiş yeri olan "Atəşgah"ı tanıyır, və dərinliklərindən atəşpərəstlərin müqəddəs saydıqları alov çıxan bu qədim məbədin ətrafında zəvvarların ibadət etdiyini görür. Bu seriyanın növbəti əsəri qədim üsulla netfçıxarmanı təsvir edir. Burada Maral Rəmanzadə işıq-kölgə oyunundan məharətlə istifadə edir və biz qızmar günəş istisindən yanmış səhrada ağır əməkdən halsızlamış fəhlələrin quyulardan Abşeron torpağının "qara qızıl"ını çıxardıqlarını görürük. Növbəti əsər "Neft çıxaran qurğu"dur. Bu əsərdə rəssam artıq sovet Azərbaycanının texniki nailiyyətlərini nümayiş etdirir – önümüzdə daha monumental görünməsi üçün aşağı nöqtədən təsvir edilmiş nəhəng neft buruğunu görürük və bu buruq sovet insanının təbiət üzərində növbəti qələbəsinə ucaldılmış zəfər tağını əvəz edir. Seriya qeyri-adi ovqatlı "Tanker dənizə çıxır" əsəri ilə tamamlanır. Ulduzlar və zərif ayparanın gümüşü parıltısı ilə işıqlanmış, ucsuz-bucaqsız səthində Bakının işıqları əks olunmuş dəniz və ağır-ağır üzən gəmini təsvir edən gecə mənzərəsi olduqca ifadəlidir. Bu cür özünəməxsus tamamlayıcı akkordla Maral Rəhmanzadənin öz əsərlərinə həmahəng səmimi melodiya ilə səslənən incə, lirik intonasiya vermək bacarığı üzə çıxır.



"Qazma gedir", 1954, 33x23
"There is Drilling", 1954, 33x23

Maral Rəhmanzadə bu tükənməz və hər zaman aktual olan mövzuya müraciət edən ilk azərbaycanlı rəssam idi. Dəmir qalağı, nəhəng neft çənləri, polad





"Neft" silsiləsindən, avtolitoqrafiyalar
Autolithographs from "Oil" series

The Oil Boom

The most important topic in Maral Rahmanzade's works is oil, which was disclosed to a certain extent in a narrative way in the graphic works of the artist. In 1947, she created a series of continuous-tone art lithographs titled "Oil", consisting of ten sheets. Being a creator of vivid imagery, Maral Rahmanzade, referring to any topic, identified a certain semantic concept, which unfolded in a series of works. In this case, her task was to tell about the unique Absheron peninsula, for centuries famous for its natural resources – oil and gas fields, which people in ancient times worshiped. In each sheet of the series the artist consistently narrates the history of oil production in Absheron, how it was produced in pre-revolutionary Azerbaijan and what technical improvements were achieved in modern Soviet Azerbaijan. One series is opened by a work titled "Fire Worshipers". By means of soft tonal transitions and beautiful lines, the artist creates a vivid composition rich in detail. Here the audience recognizes the Fire Temple at Ateshgah, surrounded by pilgrims praying at the ancient temple, from the bowels of which holy tongues of fire are thrown out. The production of oil by ancient methods is the next sequence of the series, in which Maral Rahmanzade, effectively using the play of light and shadow, shows a sun-scorched steppe where the "black gold" of the Absheron land is extracted by hand from the wells by the efforts of physically exhausted workers. Another work of the series – "The Jack Pump" shows the technological advances of Soviet Azerbaijan – presented to the viewer from ground level, in order to give a monumental and awe-inspiring perspective, a huge oil derrick is painted as a kind of a triumphal arch in honor of Soviet man's victory over nature. The series ends with a painting surprising in its mood: The Tanker Puts Out to Sea". This is a nocturnal seascape, showing the sea lit by the silvery glow of stars and a thin crescent moon. The boundless surface of the sea reflects Baku glowing with night lights and a vessel slowly passing by. In this unique finale chord of the series the fascinating ability of Maral Rahmanzade to imbue her works with a touching, lyrical tone sounding a soulful melody manifests itself.

"Fəvvarə", 1940, avtolitoqrafiya, 42x29
"Fountain", 1940, autolithograph, 42x29





"Tanker dənizə çıxır", "Neft" silsiləsindən, 1947, kağız, avtolitoqrafiya, 42x29
"The Tanker Puts to Sea", from "Oil" series, 1947, autolithograph on paper, 42x29





"Bakı", "Neft Daşları" silsiləsindən, 1956-57, kağız, litoqrafiya, 40x50
"Baku", from "Oil Rocks" series, 1956-57, lithograph on paper, 40x50

"Azərbaycan" albomu, 1964, kağız, rəngli linoqravür, 41,3x24,5
"Azerbaijan" album, 1964, color linocut on paper, 41,3x24,5



"Neft çıxaran qurğu", "Neft" silsiləsindən, 1947, kağız, avtolitoqrafiya, 57,8x41,5
"The Jack Pump", from "Oil" series, 1947, autolithograph on paper, 57,8x41,5



"Dənizdə buruqlar", "Neft" silsiləsindən, 1947, kağız, avtolitoqrafiya, 59,2x40,6
"Sea Derricks", from "Oil" series, 1947, autolithograph on paper, 59,2x40,6





"Fəhlə rayonu", 1954, kətan, yağlı boya, 29,5x33,5
"Working Place", 1954, oil on canvas, 29,5x33,5

"Fəhlələr katerdə", "Neft Daşları" silsiləsindən, 1956-57, kağız, litoqrafiya, 39x29
"Workers on the Boat", from "Oil Rocks" series, 1956-57, lithograph on paper, 39x29



"Estakadanın altında", 1965, 7x12
"Under the Pier", 1965, 7x12

It should be noted that Maral Rahmanzade was one of the first Azerbaijani artists who turned to such an inexhaustible and ever present subject. Not to everyone is given a talent to see the beauty in a pile of iron, in huge vats, in oil storage facilities, in iron piers and, for the most part, in such a serious and gloomy landscape. Maral Rahmanzade could feel the throbbing life of coiling pipes ("Transportation of Oil," 1947, "Oilmen," 1956-57) sprouting from the depths of the sea, derricks looking skyward, narrow diagonal piers receding into the distance and alternating rows of tank compartments ("The Reservoir Park" 1956 -57). In this theme, it was Maral Rahmanzade's aim to show originality and poetry, even lyricism, encrypted in the somewhat unattractive, harsh landscape of oilfields, in order to elevate and dignify the worker's labor. She miraculously found the fine line between the conflict of man with the elements and the fact that man can oppose them only by his courage and desire for survival ("In the





"Gəmidə", estamp, 24x41,5
"On the Ship", print, 24x41,5

"Növbəyə", 1965, 7x12
"To the Shift", 1965, 7x12





"Gecə", eskiz, 10x14
"At Night", sketch, 10x14







"Xəzərin ortasında", 1959, 16,5x27
"On the Caspian Sea", 1959, 16,5x27

"Dəniz mədəni", 1956-57, kağız, sulu boya, 29x39
"Oil Craft", 1956-57, watercolor on paper, 29x39

estakadalar, sərt və demək olar ki, cansıxıcı landşaftda gözəllik sezmək hər adama nəsib olmur. Maral Rəhmanzadə ilan kimi qıvrılıb uzanan, dənizin dərinliklərindən peyda olub buruqların ucuna qalxan, estakadaların ensiz diaqonalları və çoxsaylı çən qatarı boyunca uzaqlara gedən boruların nəbzini hiss etməyə müyəssər olmuşdu ("Neft nəqli" 1947, "Neftçilər tankerdə" 1956-1957). Bu mövzuda Maral Rəhmanzadə üçün özəl, hamı üçün aydın olmayan poetikliyi, bəzən neft mədənlərinin sərt mənzərəsində şifrələnmiş lirikanı göstərmək, fəhlənin zəhmətini, onun əməyini nəcibləşdirmək olduqca vacib idi. O, insana tabe olmayan təbiət qüvvələri ilə insanın bu mübarizədə nümayiş etdirdiyi cəsarət, yaşamaq eşqi kimi xüsusiyyətlər arasından keçən nazik səddi inanılmaz şəkildə hiss edə bimişdi ("Fırtınada" 1957, "Ərzaq gətirildi" 1957). Bu işlərdə ifadə olunan başlıca ideya insan əqli və iradəsinin məhsulunun təbiət ilə qəfil qaynayıb-qarışması, onun bir hissəsinə çevrilərək təbiətin görkəmini və ovqatını dəyişməsi məqamıdır ("Yeddi gəmi adası" 1957, "Günəş şüaları" 1971). Burada qismən "Bizim Xəzərdə" albomuna daxil edilmiş əsərlər seriyasını qeyd etmək yerinə düşər. Seriyanın əsərləri haqda söhbətə isə industrial tematikanın XX əsrin 30-cu illərindən etibarən

"Motorlu qayıq", 1954, 13x37,5
"Outboard Motorboat", 1954, 13x37,5









"Neft Daşları" silsiləsindən iki litoqrafiya, 1956-57, kağız, 29x39

Two lithographs on paper from "Oil Rocks" series, 1956-57, 29x39

"Dənizin körpü, kran və gəmilər fonunda görünüşü", "Bakı" silsiləsindən, 1959, rəngli linoqravür, 32x46

"Seascape against the Bridge, the Crane and the Ships", from "Baku" series, 1959, color linocut, 32x46



"Azərbaycan" albomu, 1964, kağız, rəngli linoqravür, 41,3x24,5

"Azerbaijan" album, 1964, color linocut on paper, 41,3x24,5



"Fırtına zamanı", "Neft Daşları" silsiləsindən, 1950-ci illər, kağız, ağ boya, tuş, 75,5x57,5

"Running into the Storm", from "Oil Rocks" series, 1950s, mixed technique on paper, 75,5x57,5

bu mətləblərə estetik cazibə duyan rəssamlar üçün magistral mövzu olduğunu deməklə başlamalıyıq. O zaman zavod və fabriklər, neft və qaz mədənləri, su elektrik stansiyaları, dəmir yolları, yeni şəhərlərin tikildiyi sovetlər ölkəsində müşahidə olunan industrial bum, gündəlik insan əməyinin coşqun romantikası ilə səciyyəvi idi. Çox vaxt təhlükəli və çətin insan əməyi heyrət və sevinc doğururdu. İlk dəfə dirəklər üzərində tikilən unikal şəhərə – Neft Daşlarına ayaq basan rəssamın ürəyinə məhz bu hisslər hakim kəsilmişdi. Onu təhlükəli və qəhrəman əməyin romantikası, dəmir buruqların sərt gözəlliyi cəlb etmişdi. Ekspedisiya böyük ruh



"Estakada", "Neft Daşları" silsiləsindən, 1956-57, kağız, rəngli litoqrafiya, 40x50
"The Pier", from "Oil Rocks" series, 1956-57, color lithograph on paper, 40x50



"Günəş şüaları", "Neft Daşları" silsiləsindən, 1971, kağız, rəngli linoqravür, 56x71
"Rays of the Sun", from "Oil Rocks" series, 1971, color linocut on paper, 56x71



"Xəzərin sərvətləri", "Neft Daşları" silsiləsindən, 1971, rəngli linoqravür, 61x74
"Caspian Resources", from "Oil Rocks" series, 1971, color linocut, 61x74



"Neft Daşları" silsiləsindən
From "Oil Rocks" series

